# Qlobal ekoloji böhran və iqlim maliyyələşməsi

## *Ölkəmizin bu yöndə təşəbbüsləri önəmli platforma yaradır*

**Azərbaycan COP29-un növbəti uğur hekayəsinə çevrilməsi üçün ciddi səylər göstərir. Bu çərçivədə həll edilməli məsələlərdən biri olan iqlimin maliyyələşdirilməsi problemi üzərində fəal iş aparır. Bunun üçün həmrəylik prinsipinə əsaslanılaraq beynəlxalq birlik üzvləri tərəfindən səsləndirilən müxtəlif fikirlər arasındakı fərqlər aradan qaldırılmağa çalışılır. Avropa İttifaqı artıq ev sahibi ölkə kimi Azərbaycanla sıx qarşılıqlı əlaqədə olmağa hazır olduğunu və istəyini ifadə edir. Bu beynəlxalq qurum Bakıda keçiriləcək COP29-un uğurla təşkil olunması üçün ən yüksək səviyyədə dəstək verəcəyini diqqətə çatdırır.**



Ekspertlərin fikrincə, Azərbaycan COP29-a sədrliyi zamanı dəstəyə ehtiyac duyan inkişaf etməkdə olan ölkələrin problemlərini həll etməklə Qlobal Cənubun səsi olmaq istəyir. Mühüm önəm daşıyan digər bir amil isə, həqiqətən, “yaşıl enerji” gündəminin təşviqi ilə məşğul olan neft hasil edən ölkə kimi Azərbaycanın artıq alternativ enerji layihələrinə başlamasıdır.

Azərbaycan Günəş və külək enerjisi baxımından böyük potensiala malikdir. İndiyədək imzalanan müqavilələr artıq yaxın illərdə bərpaolunan enerji və ya “yaşıl enerji”nin istehsalını 5 GVt-a çatdıracaq. Xəzər dənizində külək enerjisi də daxil olmaqla 150 GVt potensial mövcuddur.

Ölkəmiz Qara dənizdə sualtı kabel vasitəsilə elektrik enerjisini ixrac etməyi planlaşdırır. Bu, Azərbaycan, Gürcüstan, Rumıniya, Bolqarıstan və Macarıstanı birləşdirən bir layihədir. Respublikamız hidrogen ixracı barədə də müəyyən planlara malikdir. Bütün bunlar isə təkcə Avropaya enerji ixracını şaxələndirən layihələr deyil, eyni zamanda, ölkə daxilində yaşıl enerjiyə keçidi gerçəkləşdirən layihələrdir. Ümumiyyətlə, COP29 “yaşıl enerji”yə doğru irəliləmək və başqalarına nümunə olmaq üçün Azərbaycanın yaxşı şansının olduğunu nümayiş etdirmək baxımından əlverişli fürsətdir.

Azərbaycan bu gün iqlimin maliyyələşdirilməsi probleminin həllini də diqqətdə saxlayıb. Prezident İlham Əliyev Almaniyanın paytaxtı Berlində keçirilən “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı “Euronews” telekanalına müsahibəsində bununla əlaqədar müəyyən məqamlara aydınlıq gətirib. Dövlətimizin başçısı vurğulayıb: “Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir”.

Yeri gəlmişkən, Azərbaycanın COP29-da sədrliyi ən mühüm mövzuya – iqlimin maliyyələşdirilməsinə həsr olunub. İtki və Zərərlərin Ödənilməsi Beynəlxalq Fondu sənaye güclərinin inkişaf etməkdə olan ölkələrə yardım göstərməsinə imkan yaratmaq üçün kompensasiya mexanizmi təqdim edib. Bununla belə, fond indiyədək cəmi 429 milyon ABŞ dolları toplayıb ki, bu da həmin ölkələrə dəymiş zərərdən xeyli az olub. Buna görə də ekspertlər tərəfindən Bakıda keçiriləcək COP29-a iqlim maliyyəsinin ədalətli bölüşdürülməsi platforması kimi yanaşılıb.

Dünya İqtisadi Forumunun məlumatına görə, 2023-cü ildən etibarən dünyada bərpaolunan enerji potensialının artımı müşahidə edilir. Bu hesabata əsasən, 2024-cü ildə 473 GVt bərpaolunan enerji gücü əlavə edilib ki, bu da ötən illə müqayisədə 36 faiz çoxdur, lakin iqlim məqsədlərinə çatmaq üçün kifayət deyil. Bərpaolunan enerjiyə ümumi qlobal sərmayə 2023-cü ildə 8,1 faiz artaraq 623 milyard dollara çatıb. İqlimlə bağlı arzuedilən məqsədlərə nail olmaq üçün isə hər il təxminən 1,3 trilyon dollar tələb olunur.

Ötən il BƏƏ-də keçirilən COP28 konfransında inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını və prioritetlərini nəzərə alaraq, iqlimin maliyyələşdirilməsi üçün müzakirələr davam etdirildi. COP29 çərçivəsində isə 2030-cu ilə qədər bərpaolunan qlobal enerji potensialının üç dəfə, enerji səmərəliliyinin ikiqat artırılması və mədən yanacaqlarından “yaşıl iqtisadiyyat”a keçidin sürətləndirilməsi üzrə öhdəliklər müzakirə ediləcək.

Azərbaycan qlobal istiləşməni 1,5°C ilə məhdudlaşdırmaq yolları ilə bağlı beynəlxalq konsensus yaratmağa davam edəcək. COP29-da tərəflərin iqlim maliyyəsi üçün yeni kollektiv kəmiyyət məqsədi (NCQG) üzrə razılığa gəlmələri, həmçinin 6-cı maddə və ədalətli keçid gündəliyi çərçivəsində işlərini davam etdirmələri gözlənilir.

Nəhayət, Azərbaycan COP29 konfransına evsahibliyi etməyə hazırlaşarkən bərpaolunan enerji mənbələrinin payını artırmağı, eləcə də bu sahəyə özəl investisiyalar vasitəsilə “yaşıl enerji” potensialını açmağı öhdəsinə götürüb. Ötən ay Səudiyyə Ərəbistanı və Azərbaycan davamlı və dayanıqlı qlobal enerji keçidi istiqamətində enerji sektorunda ikitərəfli əlaqələrin gücləndirilməsinə sadiq olduqlarını bir daha təsdiq ediblər. Azərbaycanın energetika naziri Pərviz Şahbazov qlobal neft bazarında sabitliyin qorunması üçün OPEC+ və digər birgə təşəbbüslər çərçivəsində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıb. Həm Səudiyyə Ərəbistanı, həm də Azərbaycan iqlim dəyişikliyi ilə mübarizə üçün balanslaşdırılmış və inklüziv fəaliyyətin zəruriliyi barədə razılığa gəliblər. Azərbaycanın “yaşıl enerji” sahəsində tərəfdaş ölkələrlə fəal əməkdaşlığa diqqət yetirməsi özünü yalnız neft və qaz təchizatçısı kimi deyil, həm də “yaşıl enerji” təchizatçısı kimi göstərmək istəyini nümayiş etdirir.

***Hazırladılar:***
***V.BAYRAMOV,***
***M.QULİYEV***
***XQ***

Xalq qəzeti .- 2024.- 4 iyun, № 116.- S.8.